# Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli, 168-IIQ saylı Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»yə əlavələr və dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 447; 1999-cu il, № 10, maddə 570; 2000-ci il, № 12, maddə 835; 2001-ci il, № 11, maddələr 676, 686, 695, № 12, maddə 736; 2002-ci il, № 1, maddə 4, № 8, maddə 463; 2003-cü il, № 1, maddələr 3, 16, 23; 2004-cü il, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 400, № 7, maddə 505; 2005-ci il, № 4, maddə 277, № 10, maddə 876, № 11, maddə 994; 2007-ci il, № 5, maddə 442, № 6, maddə 560, № 10, maddə 938, № 11, maddə 1053; 2008-ci il, № 7, maddə 602) 424-cü maddəsində aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. adında *«həlak olduqda»* sözlərindən sonra *«(vəfat etdikdə)»* sözləri əlavə edilsin, *«bədən xəsarəti»* sözləri *«xəsarət (yaralanma, travma, kontuziya)»* sözləri ilə əvəz edilsin;

2. mətnində *«həlak olduqda»* sözlərindən sonra *«(vəfat etdikdə)»* sözləri əlavə edilsin, *«onu sonrakı peşə fəaliyyəti ilə məşğul olmaq imkanından məhrum edən bədən xəsarəti və digər bədən xəsarəti»* sözləri *«xəsarət (yaralanma, travma, kontuziya)»* sözləri ilə əvəz edilsin.

II. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 4, maddə 213; 2001-ci il, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002-ci il, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003-cü il, № 1, maddələr 9, 23; 2004-cü il, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413 № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005-ci il, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006-cı il, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1024, 1025, 1030; 2007-ci il, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, № 11, maddələr 1049, 1053; 2008-ci il, № 3, maddə 156, № 7, maddələr 600, 602) aşağıdakı dəyişiklik və əlavə edilsin:

1. 66-cı maddənin ikinci abzasında *«yaralanmış»* sözü *«xəsarət (yaralanma, travma, kontuziya) almış»* sözləri ilə əvəz edilsin;

2. 120-ci maddədə və 130-cu maddənin birinci hissəsinin «e)» yarımbəndində *«xəsarət»* sözündən sonra *«(yaralanma, travma, kontuziya)»* sözləri əlavə edilsin.

III. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli, 168 IIQ saylı qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 453, № 12, maddə 731; 2004-cü il, № 10, maddə 760; 2005-ci il, № 4, maddə 280, № 10, maddələr 871, 872; 2006-cı il, № 10, maddə 846, № 11, maddə 927; 2007-ci il, № 8, maddə 756, № 11, maddələr 1073, 1081; 2008-ci il, № 3, maddə 155) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə»yə aşağıdakı dəyişikliklər və əlavə edilsin:

1. 83-cü maddənin üçüncü hissəsində *«yaralanma, kontuziya»* sözləri *«xəsarət (yaralanma, travma, kontuziya)»* sözləri ilə əvəz edilsin;

2. 93-cü maddədə *«həlak olmuş, bədən xəsarəti»* sözləri *«həlak olmuş (vəfat etmiş), xəsarət (yaralanma, travma, kontuziya)»* sözləri ilə əvəz edilsin;

3. 157-ci maddədə *«həlak olan»* sözlərindən sonra *«(vəfat edən)»* sözləri əlavə edilsin.

IV. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 16 dekabr 2008-ci il***

***№ 743-IIIQD***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (15 fevral 2009-cu il, № 36) («VneshExpertService» LLC).***

***«Respublika» qəzetində dərc edilmişdir (15 fevral 2009-cu il, № 36) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (28 fevral 2009-cu il, № 2 (140), maddə 48) («VneshExpertService» LLC).***

© *VneshExpertService LLC*